| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI QƏRARI* |
| Qəbul edildiyi tarix | *24.12.2012* |
| Qeydiyyat nömrəsi | *Q-12* |
| Adı | *"Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat"ın təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *30.12.2012* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.160.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201212240012* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *29.12.2012* |

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən büdcə təşkilatlarının, bələdiyyə orqanlarının və büdcədənkənar dövlət fondlarının bu qanunla tələb olunan maliyyə hesabatlarını Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib etdiklərini nəzərə alaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanının 2.1-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2009-cu il tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyİ haqqında Əsasnamə"nin 7.7-ci, 7.11-ci, 8.48-ci və 8.53-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏ**RARA ALIR:

1. "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat" təsdiq edilsin (əlavə olunur).

2. Uçot siyasəti şöbəsinə və Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

3. Uçot siyasəti şöbəsinə tapşırılsın:

3.1. Nazirliyin aidiyyəti struktur bölmələrinin, büdcə təşkilatlarının, bələdiyyə orqanlarının və büdcədənkənar dövlət fondlarının bu Qərarla tanış olmalarını təmin etsin;

3.2. Bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
maliyyə naziri Samir Şərifov

Azərbaycan Respublikası
Maliyyə Nazirliyinin
Kollegiyasının
Q-12 nömrəli

“24” dekabr 2012-ci il tarixli

Qərarı ilə təsdiq edilmişdir.

# Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat

## 1. Ümumi müddəalar

1.1. Bu Təlimat “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu və “Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları” əsasında hazırlanmışdır.

1.2. Bu Təlimat illik maliyyə hesabatlarını Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edən büdcə təşkilatlarına, büdcədənkənar dövlət fondlarına və bələdiyyə orqanlarına (bundan sonra təşkilatlar) şamil edilir.

1.3. Bu Təlimat təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə amortizasiyanın düzxətt və azalan qalıq metodu əsasında tətbiq edilən amortizasiya normalarını müəyyən edir.

1.4. Bu təlimatla müəyyən edilmiş amortizasiya normalarından “Mühasibat uçotu haqqında” Qanuna əsasən illik maliyyə hesabatlarının tərtib edilməsi zamanı digər mühasibat uçotu subyektləri istifadə etmək hüququna malikdir.

## 2. Əsas anlayışlar

2.1. Bu Təlimatda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. Əsas fondlar – təşkilatların təsərrüfat fəaliyyətində əmək vasitəsi kimi istifadə müddəti bir ildən artıq olan, istismar zamanı öz formasını dəyişməyən, lakin köhnəlməyə məruz qalan, təşkilat tərəfindən malların istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi və ya onun idarə olunması məqsədləri üçün əldə edilmiş, habelə təsərrüfat üsulu ilə yaradılmış aktivlərdir.

2.1.2. Qeyri-maddi aktivlər–təşkilatların təsərrüfat fəaliyyətində bir ildən artıq müddətdə istifadə, edilən gəlir gətirən və fiziki formaya malik olmayan, tanına bilən qeyri-monetar aktivlərdir.

2.1.3. Amortizasiya – əsas fondların və qeyri-maddi aktivlərin istismarı nəticəsində onların yararlı istifadə müddəti ərzində balans dəyərinin tədricən azalmasını əks etdirən məbləğdir.

2.1.4. Amortizasiya məbləği – bu Təlimatla müəyyən edilmiş normalar əsasında əsas fondlara hesablanılmış məbləğdir.

2.1.5. Amortizasiyanın düzxətt metodu – əsas fondlar üzrə yararlı istifadə müddəti ərzində bu Təlimatla müəyyən olunmuş illik amortizasiya normaları əsasında bərabər şəkildə amortizasiya məbləğinin hesablanmasıdır.

## 3. Əsas fondların strukturu

3.1. Əsas fondlar torpaq, tikili və avadanlıqlar, torpaq, tikili və avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər, bioloji aktivlər, bioloji aktivlər üzrə kapitallaşdırılmış məsrəflər, daşınmaz əmlaka investisiyalar, daşınmaz əmlaka investisiyalar üzrə kapitallaşdırılmış məsrəflər, sair uzunmüddətli qeyri-maliyyə aktivlərindən ibarətdir.

3.2. Göstərilən əsas fondlar "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları" ilə müəyyən olunmuş müvafiq Hesablar Planında əks etdirilməklə aşağıdakı kateqoriyalardan ibarətdir:

3.2.1. Torpaq;

3.2.2. Tikili və avadanlıqlar;

3.2.3. Nəqliyyat vasitələri;

3.2.4. Sair torpaq, tikili və avadanlıqlar;

3.2.5. Torpaq, tikili və avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər;

3.2.6. Bioloji aktivlər;

3.2.7. Bioloji aktivlər üzrə kapitallaşdırılmış məsrəflər;

3.2.8. Daşınmaz əmlaka investisiyalar;

3.2.9. Daşınmaz əmlaka investisiyalar üzrə kapitallaşdırılmış məsrəflər;

3.2.10. Sair uzunmüddətli qeyri-maliyyə aktivləri;

3.3. Torpaq kateqoriyası torpaq, meşə, su sahələri və faydalı qazıntı hövzələri kimi siniflərə bölünür.

3.4. Tikili və avadanlıqlar kateqoriyası binalar və onların struktur komponentləri, qurğular (tikililər) və onların struktur komponentləri, ötürücü qurğular və onların struktur komponentləri, istehsal və xidmət prosesində iştirak edən bütün növ maşın və avadanlıqlar kimi siniflərə bölünür.

3.4.1. Binalar və onların struktur komponentləri sinfinə təyinatından asılı olmayaraq bütün növ binalar, o cümlədən inzibati binalar, yaşayış binaları, sosial-mədəni obyektlər, xəstəxana, poliklinika binaları, uşaq müəssisələri, internat evləri, qocalar və əlillər evləri, tələbə yataqxanaları, kitabxana, klub, muzey binaları, elmi-tədqiqat institutları, laboratoriyalar, sexlər və başqa istehsalatların, təsərrüfatların yerləşdikləri binalar aiddir. Göstərilən binalar və onların struktur komponentləri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.4.1.1. iki mərtəbədən artıq çoxmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.2. divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən, iri blok və panellərdən tikilmiş dəmir-beton karkaslı birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.3. taxta binalar istisna olmaqla iki mərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.4. daşdoğranılma, üyüdülmə, kimyəvi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar;

3.4.1.5. divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.6. divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.7. yüngülləşdirilmiş hörgü ilə divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.8. divarı tirdən, şalbandan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı taxta binalar;

3.4.1.9. karkaslı və taxta lövhələrdən yığılmış, taxta-metal konstruksiyalı, karkas örtüklü, panel istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.10. divarı gildən, samandan, qamışdan və bu kimi analoji materiallardan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.4.1.11. divarları daşdan və bloklardan hörülmüş dəmir-beton, kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar;

3.4.1.12. soyuducu avadanlıqlarla təchiz edilmiş, divarları daşdan və bloklardan hörülmüş, dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar;

3.4.1.13. divarı daşdan və ya kərpicdən hörülmüş dəmir-beton karkaslı və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.4.1.14. divarı daşdan və ya kərpicdən hörülmüş dəmir-beton karkaslı və mərtəbələrarası beton və ya taxta dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.4.1.15. divarı iri panellərdən tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.4.1.16. yüngülləşdirilmiş hörgü ilə divarı kərpicdən, şlak-beton qarışıqlı monolitdən, yüngül şlak-bloklardan tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.4.1.17. divarı iri bloklardan, kərpicdən və ya yüngülləşdirilmiş hörgü ilə kərpicdən, şlak-beton qarışıqlı monolitdən, xırda şlak-bloklardan tikilmiş və mərtəbələrarası taxta dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.4.1.18. divarı tirdən, şalbandan tikilmiş yaşayış binaları;

3.4.1.19. divarı gildən, samandan tikilmiş, taxta lövhələrdən (şitlərdən) yığılmış və bu kimi analoji materiallardan tikilmiş və yığılmış yaşayış binaları.

3.4.2. Qurğular (tikililər) və onların struktur komponentləri sinfinə təyinatından asılı olmayaraq bütün növ qurğular, o cümlədən nəqliyyat, rabitə, sosial-mədəni sahələrdə, həmçinin başqa inzibati binaların, onların strukturuna daxil olan istehsalatların, təsərrüfatların yerləşdikləri ərazilərdə istifadə olunan qurğular aiddir. Göstərilən qurğular və onların struktur komponentləri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.4.2.1. dəmir-beton, beton və daşdan tikilmiş bütün növ konstruksiyalı körpülər;

3.4.2.2. daşdan tikilmiş dayaqlar üzərində quraşdırılmış bütün növ konstruksiyalı dəmir körpülər;

3.4.2.3. taxta dayaqlar üzərində quraşdırılmış bütün növ konstruksiyalı dəmir və taxta körpülər;

3.4.2.4. sement-betondan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri;

3.4.2.5. asfalt-betondan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri;

3.4.2.6. metal qırıntılarından istifadə olunmaqla dəmir-betondan salınmış yollar, meydançalar, uçuş-enmə zolaqları, dönmə dairələri;

3.4.2.7. çınqıldan, qəmbər daşlardan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri;

3.4.2.8. bağlayıcı tikinti materiallarından istifadə olunmaqla bərk torpaqdan, habelə bunlara oxşar üsullarla salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri.

3.4.2.9. neft məhsullarının və sürtkü materiallarının saxlanılması üçün dəmir çənlər, rezervuarlar;

3.4.2.10. neft məhsullarının və sürtkü materiallarının saxlanılması üçün dəmir-beton çənlər, rezervuarlar;

3.4.2.11. kimyəvi məhsulların və sürtkü materiallarının saxlanılması üçün dəmir-beton çənlər, rezervuarlar;

3.4.2.12. sıxılmış qazın saxlanılması üçün yeraltı və yerüstü rezervuarlar;

3.4.2.13. neft və kimyəvi qalıqların axıdılması üçün yeraltı rezervuarlar;

3.4.2.14. qum-lil yığan qurğular, şlak yığan qurğular;

3.4.2.15. daimi daş və dəmir-beton hasarlar;

3.4.2.16. daimi taxta hasarlar;

3.4.2.17. nəqliyyat vasitələri üçün keçidlər, asma yollar;

3.4.2.18. dəmir, dəmir-beton və daş naviqasiya - sahil nişanları;

3.4.2.19. taxta naviqasiya - sahil nişanları;

3.4.2.20. dəmir siqnal üzgəci;

3.4.2.21.sahil və üzücü naviqasiya nişanlarının işiq-texniki, səs-siqnal qurğuları;

3.4.2.22. dəmir-beton özüllü gəmiqaldıran qurğular;

3.4.2.23. taxta, dirəklər (payalar) və tir özüllü sahil gəmiqaldıran qurğular;

3.4.2.24. metal, dəmir-beton və qarışıq materiallardan hazırlanmış üzən tərsanələr;

3.4.2.25. metal, dəmir-beton və qarışıq materiallardan hazırlanmış tərsanələr;

3.4.2.26. hovuzlar, novlar;

3.4.2.27. heykəllər, xatirə lövhələri, bütün növ atraksionlar və bu kimi analoji qurğular;

3.4.2.28. stadionlar, idman meydançaları, xüsusi stendlər, habelə bağlarda (bağçalarda), parklarda, digər ictimai yerlərdə quraşdırılan, tikilən və salınan fəvvarələr, hovuzlar;

3.4.2.29. taxılın müvəqqəti saxlanılması üçün özülü torpaq və çınqıldan hazırlanmış asfalt meydançalar;

3.4.2.30. taxılın müvəqqəti saxlanılması üçün özülü betondan hazırlanmış asfalt meydançalar;

3.4.2.31. kanalizasiya-nasos stansiyaları;

3.4.2.32. su-nasos stansiyaları;

3.4.2.33. dəmir-betondan hazırlanmış üfüqi durulducu hovuzlar və çənlər;

3.4.2.34. dəmir-betondan hazırlanmış şaquli və iki yaruslu durulducu hovuzlar və çənlər;

3.4.2.35. kərpicdən tikilmiş durulducu hovuzlar və çənlər;

3.4.2.36. dəmir-beton rezervuarlara malik olan kərpicdən və dəmir-betondan tikilmiş su qüllələri;

3.4.2.37. metal rezervuarlara malik olan kərpicdən tikilmiş su qüllələri;

3.4.2.38. metaldan hazırlanmış su qüllələri;

3.4.2.39. karkası polad konstruksiyasından hazırlanmış şüşələnmiş qış istixanaları;

3.4.2.40. karkası korroziyaya davamlı materialdan hazırlanmış yaz istixanaları;
3.4.2.41. karkası taxta-metal konstruksiyasından hazırlanmış polietilen örtüklü istixanalar;
3.4.2.42. karkası taxtadan hazırlanmış polietilen örtüklü istixanalar;
3.4.2.43. daşdan tikilmiş peyin anbarları;
3.4.2.44. taxtadan tikilmiş peyin anbarları;
3.4.2.45. binası və avadanlığı daxil yanacaqdoldurma məntəqələri;
3.4.2.46. heyvanların saxlanılması üçün tövlələr;
3.4.2.47. silos xəndəkləri, çalaları və quraşdırılmış hovuzlar;
3.4.2.48. torpaq sututarları
3.4.2.49. Filtrsiz artezian quyuları
3.4.2.50. Filtrli artezian quyuları
3.4.2.51. suçıxaran artezian quyuları, suçıxaran qurğular;
3.4.2.52. metropoliten stansiyaları;
3.4.2.53. metropoliten tunelləri;
3.4.2.54. metropolitenin yerüstü vestibülləri;
3.4.2.55. bütün növ konstruksiyalı dəmir yolu tunelləri;
3.4.2.56. piyada körpüləri və tunelləri;
3.4.2.57. betondan və asbestsementdən salınmış telefon kanalizasiyaları;
3.4.2.58. peyk rabitəsi üçün tam dönərli antenalar;
3.4.2.59. radio-televiziya gülləələri, polad radiodirəklər və polad antena dirəkləri;
3.4.2.60. taxta dirəklər;
3.4.2.61. dəmir-betondan və poladdan hazırlanmış xüsusi radio-televiziya qüllələri;
3.4.2.62. dəmir-betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan hovuzlar;
3.4.2.63. dəmir-betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular;
3.4.2.64. taxtadan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular;
3.4.2.65. metaldan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular;
3.4.2.66. betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular;
3.4.2.67. dəmir-beton konstruksiyasından hazırlanmış buxarlandırıcı soyuducu qurğular və qülləli soyuducu qurğular;
3.4.2.68. metal konstruksiyasından hazırlanmış buxarlandırıcı soyuducu qurğular və qülləli soyuducu qurğular;
3.4.2.69. asbest-sement və ya suya davamlı taxta konstruksiyaya malik olan buxarlandırıcı soyuducu qurğular və qülləli soyuducu qurğular;
3.4.2.70. daş və dəmir-betondan tikilmiş tüstü bacaları;
3.4.2.71. metaldan hazırlanmış tüstü bacaları;
3.4.2.72. dəmir-beton və metal rezervuara malik olan bitum anbarı;
3.4.2.73. kömür bunkerləri;
3.4.2.74. sair qurğular, o cümlədən su kəməri üçün təmizləyici qurğular kompleksi, suyumşaldıcılar, habelə 3.4.2.-ci yarımbənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan başqa qurğular.
3.4.3. Ötürücü qurğular və onların struktur komponentləri sinfinə istehlakçıya çatdırılacaq enerji, maye və qaz halındakı məhsulların ötürülməsində iştirak edən bütün növ avadanlıqlar, qurğular (bu kimi ötürücü qurğuların və avadanlıqların yerləşdiyi binalardan başqa) aiddir. Göstərilən ötürücü qurğular və onların struktur komponentləri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.4.3.1. metal və dəmir-beton dayaqlar üzərində qurulmuş qatarlar üçün elektrikötürücü qurğular şəbəkəsi;

3.4.3.2. metal və dəmir-beton dayaqlar üzərində qurulmuş trolleybus və tramvaylar üçün elektrikötürücü qurğular şəbəkəsi;

3.4.3.3. taxta dayaqlar üzərində qurulmuş trolleybus və tramvaylar üçün elektrikötürücü qurğular şəbəkəsi;

3.4.3.4. metal və dəmir-beton dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dək olan elektrikötürücü naqillər;

3.4.3.5. metal və dəmir-beton dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dan yuxarı olan elektrikötürücü naqillər;

3.4.3.6. taxta dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dək olan elektrikötürücü naqillər;

3.4.3.7. taxta dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dan yuxarı olan elektrikötürücü naqillər;

3.4.3.8. qurğuşun örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri;

3.4.3.9. qurğuşun örtüklü suyun altında çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri;

3.4.3.10. alüminium örtüklü yerin altında çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri;

3.4.3.11. alüminium örtüklü binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri;

3.4.3.12. plastmas örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri;

3.4.3.13. qurğuşun örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dan yuxarı olan elektrikötürücü kabel naqilləri;

3.4.3.14. qurğuşun örtüklü suyun altında çəkilmiş gərginliyi 10 kvt-dan yuxarı olan elektrikötürücü kabel naqilləri;

3.4.3.15. metal örtüklü yerin altında və kanalizasiya xətlərində çəkilmiş rabitə kabel naqilləri;

3.4.3.16. metal örtüklü dayaqlar üzərində asılmış, binaların və onların struktur komponentlərinin divarlarından çəkilmiş rabitə kabel naqilləri;

3.4.3.17. plastmas örtüklü dayaqlar üzərində asılmış, binaların və onların struktur komponentlərinin divarlarından çəkilmiş rabitə kabel naqilləri;

3.4.3.18. plastmas örtüklü yerin altında və kanalizasiya xətlərində çəkilmiş rabitə kabel naqilləri;

3.4.3.19 sair rabitə kabel naqilləri;

3.4.3.20. yüksək tezlikli dalğaların, radio dalğalarının və sair rabitə dalğalarının ötürülməsi üçün nəzərdə tutulmuş qurğular;

sair rabitə kabel naqilləri;

3.4.3.21. çuqun qaz kəmərləri;

3.4.3.22. qaztənizlmləyici məntəqələrin avadanlıqları nəzərə alınmamaqla polad qaz kəmərləri və onların üzərində olan qurğular;

3.4.3.23. qeyri-metal qaz kəmərləri;

3.4.3.24. keramika materiallarından və çuqundan hazırlanmış kanalizasiya xətləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları;

3.4.3.25. digər materiallardan hazırlanmış kanalizasiya xətləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları;

3.4.3.26. çuqundan hazırlanmış su kəmərləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları;

3.4.3.27. digər materiallardan hazırlanmış su kəmərləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları;

3.4.3.28. ümumi zavod təyinatlı, sexlərarası (sahələrarası) texnoloji və çirkab suların axıdılması üçün nəzərdə tutulmuş boru kəmərləri;

3.4.3.29. sair ötürücü qurğular, o cümlədən neft məhsulları üçün boru kəmərləri, istilik sistemi üçün boru kəmərləri, habelə 3.4.3-cü yarımbənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan başqa ötürücü qurğular.

3.4.4. Maşın və avadanlıqlar sinfinə güc maşınları və avadanlıqları, iş maşınları və avadanlıqları, ölçü cihazları, tənzimləyici cihazlar və qurğular, laboratoriya avadanlıqları, hesablama texnikası, tibbi avadanlıqlar və sair maşın və avadanlıqlar aiddir. Göstərilən maşın və avadanlıqlar sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.4.4.1. güc maşınları və avadanlıqları, o cümlədən elektrik enerjisi və istilik hasil edən maşın-generatorlar və müxtəlif növ enerji (onlardan su enerjisi, külək enerjisi, istilik enerjisi, elektrik enerjisi, günəş enerjisi) hasil edən maşın-mühərriklər və bu kimi başqa güc maşınları və avadanlıqları;

3.4.4.2. iş maşınları və avadanlıqları, o cümlədən istehsalat prosesində mexaniki mühərriklərin, insan və heyvan gücünün köməyi ilə əmək predmetlərinin yerdəyişməsinə, istehsalat xarakterli işlərin (xidmətlərin) göstərilməsi prosesində əmək predmetlərinə mexaniki, termiki və kimyəvi təsir göstərmək üçün nəzərdə tutulmuş, maşınlar və avadanlıqlar, həmçinin poliqrafiya sahəsində, yol-tikinti, sualtı-texniki işlərdə və digər sahələrdə istifadə olunan başqa maşınlar və avadanlıqlar;

3.4.4.3. ölçü cihazları, o cümlədən dozatorlar, ampermetrlər, barometrlər, vatmetrlər, suölçənlər, vakuumetrlər, vaporimetrlər, voltmetrlər, hündürlükölçənlər, qalvonometrlər, geodeziya cihazları, hiqroskoplar, indikatorlar, kompaslar, manometrlər, xronometrlər, xüsusi tərəzilər, kassa aparatları və başqa ölçü cihazları;

3.4.4.4. tənzimləyici cihazlar və qurğular, o cümlədən oksigenli tənəffüs cihazları, elektrik, pnevmatik və hidravlik tənzimləyən cihazlar, avtomatik idarəetmə pultları, blakirovka və mərkəzləşdirmə aparatları, dispetçer nəzarəti üçün xətti qurğular və bu kimi başqa tənzimləyici cihazlar və qurğular;

3.4.4.5. laboratoriya avadanlıqları, o cümlədən pirometrlər, nizamlayıcılar, kalorimetrlər, nəmliyi müəyyən edən cihazlar, distillə qazanları, laboratoriya koprları, mikroskoplar, termostatlar, stabilizatorlar, sorucu şkaflar, mikroskoplar və başqa laboratoriya avadanlıqları;

3.4.4.6. hesablama texnikası, o cümlədən elektron hesablayıcılar, idarəçi və analoji maşınlar (kompüterlər, printerlər, skanerlər, surətçıxaran maşınlar, fakslar, telefon aparatları), rəqəmli hesablayıcı maşınlar və qurğular, bu kimi başqa hesablama texnikası;

3.4.4.7. tibbi avadanlıqlar, o cümlədən diş həkimləri üçün kreslolar, cərrahiyyə stolları, xüsusi avadanlıq bərkidilmiş çarpayılar, xüsusi dezinfeksiya avadanlıqları, qanköçürmə stansiyaları və bu kimi başqa tibbi avadanlıqlar;

3.4.4.8. Elektrik mühərrikləri gücü 100 kvt-a qədər

3.4.4.9. Elektrik mühərrikləri gücü 100 kvt-dan yuxarı

3.4.4.10. Dizel-qeneratorlar

3.4.4.11. Metalkəsən dəzgahlar

3.4.4.12. Körpülü kranlar

3.4.4.13. Üzən nasos stansiyaları

3.4.4.14. Səyyar akkumulyatorlar

3.4.4.15. Qaynaq aqreqatları

3.4.4.16. Qazma və təmir aqreqatları

3.4.4.17. emalatxanalarda, kabinetlərdə, və otaqlarda quraşdırılmış avadanlıqlar, kinoaparatlar, işıqlandırma aparatları, səhnə avadanlıqları, musiqi alətləri, televizorlar, radio-aparatlar, xüsusi elmi-tədqiqat avadanlıqları, avtomatlaşdırılmış telefon stansiyalarının avadanlıqları, avtomobillərdə və ya at arabalarında yerləşdirilən yanğınsöndürən maşınlar və avadanlıqlar, mexanikləşdirilmiş yanğın nəqliyyatları, paltaryuyan və paltartikən maşınlar, soyuducular, kondisionerlər, tozsoranlar, dispenserlər, habelə 3.4.4-cü yarımbənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan bu kimi başqa maşın və avadanlıqlar, alətlər (elektrik enerjisinin, sıxılmış havanın və başqalarının vasitəçiliyi ilə işləyən mexanikləşdirilmiş əl əməyi alətləri, kəsmək, zərbə endirmək, əzmək və bərkitmək kimi işləri görmək, həmçinin maşınlara quraşdırılmış və materiallar emal etmək üçün işlədilən mexanikləşdirilməmiş əl əməyi alətləri).

3.5. Nəqliyyat vasitələri kateqoriyası hava nəqliyyatı vasitələri, dəmiryol nəqliyyatı vasitələri, su nəqliyyatı vasitələri, xidmət nəqliyyatları, istehsalat nəqliyyatları, avtomobil nəqliyyatları, idman nəqliyyatları kimi siniflərə bölünür.

3.5.1. Hava nəqliyyatı vasitələri sinfinə təyinatından asılı olmayaraq bütün növ hava nəqliyyatı vasitələri aiddir. Göstərilən hava nəqliyyatı vasitələri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.5.1.1 təyyarələr, vertolyotlar və bu kimi başqa nəqliyyatı hava nəqliyyatı vasitələri;

3.5.2. Dəmiryol nəqliyyatı vasitələri sinfinə təyinatından asılı olmayaraq bütün növ dəmiryol nəqliyyatı vasitələri aiddir. Göstərilən dəmiryol nəqliyyatı vasitələri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.5.2.1 elektrovozlar, teplovozlar, parovozlar, motovozlar, elektrik qatarları, metropoliten qatarları, metaldan hazırlanmış sərnişin vaqonları (yumşaq, bərk kupe və bərk açıq tipli), taxta kuzovlu sərnişin vaqonları (yumşaq, bərk kupe və bərk açıq tipli), örtülü yük vaqonları, açıq vaqonları, sisternlər, refrejeratorlu və izotermik vaqonlar, platformalar və bu kimi başqa dəmiryol nəqliyyatı vasitələri;

3.5.3. Su nəqliyyatı vasitələri sinfinə təyinatından asılı olmayaraq bütün növ su nəqliyyatı vasitələri aiddir. Göstərilən su nəqliyyatı vasitələri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.5.3.1. teploxodlar, paroxodlar, dizel elektroxodları, barjalar, barkalar, bərələr, sərnişin və yük gəmiləri, xidmətedici və köməkçi gəmilər, tankerlər, katerlər, neft tullantıları və zibilyığan gəmilər, xilasedici gəmilər, üzən körpülər, yelkənli gəmilər, dəniz yedəkləri və bu kimi başqa su nəqliyyatı vasitələri;

3.5.4. Xidmət nəqliyyatı vasitələri sinfinə təyinatından asılı olmayaraq bütün növ xidmət nəqliyyatı vasitələri aiddir. Göstərilən xidmət nəqliyyatı vasitələri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.5.4.1. metal və taxta vaqonlar, trolleybuslar, tramvaylar, avtobuslar, refrejeratorlar və bu kimi başqa xidmət nəqliyyatları;

3.5.5. İstehsalat nəqliyyatı vasitələri sinfinə təyinatından asılı olmayaraq bütün növ istehsalat nəqliyyatı vasitələri aiddir. Göstərilən istehsalat nəqliyyatı vasitələri sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.5.5.1. Çalovun həcmi 0,4 $m^3$-a qədər birçalovlu tırtıllı hərəkət mexanizmli ekskavatorlar;

3.5.5.2. Çalovun həcmi 0,4-1,4 $m^3$-a qədər və yuxarı birçalovlu tırtıllı hərəkət mexanizmli ekskavatorlar;

3.5.5.3. Çalovun həcmi 0,25 $m^3$-a qədər birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar;

3.5.5.4. Çalovun həcmi 0,25-0,5 $m^3$-a qədər birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar;

3.5.5.5. Çalovun həcmi 0,5-1,4 $m^3$-a qədər və yuxarı birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar;

3.5.5.6. Avtoqreyderlər;

3.5.5.7. Avtoskreperlər;

3.5.5.8. Qoşqulu skreperlər;

3.5.5.9. Tırtıllı traktorlar;

3.5.5.10. Təkərli traktorlar;

3.5.5.11. buldozerlər, kombaynlar, elektrokarlar, motorolerlər, idman üçün nəzərdə tutulmayan motosikllar və velosipedlər, mopedlər, araba nəqliyyatları və bu kimi başqa istehsalat nəqliyyatları;

3.5.6. Avtomobil nəqliyyatları;

3.5.6.1. Yükgötürmə qabilyyəyi 25 tona qədər olan yük avtomobilləri;

3.5.6.2. Yükgötürmə qabilyyəyi 25 tondan yuxarı yük avtomobilləri;

3.5.6.3. Avtokranlar;

3.5.6.4. Avtobetonqarışdırıcılar;

3.5.6.5. Qoşqu və yarımqoşqular;

3.5.6.6. Minik avtomobilləri;

3.5.7. idman maşınları, idman motosiklları, idman velosipedləri və bu kimi başqa idman nəqliyyatları;

3.6. Sair torpaq, tikili və avadanlıqlar kateqoriyası təsərrüfat inventarları sinfindən ibarətdir.

3.6.1. **Təsə**rrüfat inventarları sinfinə iş vaxtı fəaliyyətin asan yerinə yetirilməsinə kömək etmək üçün nəzərdə tutulan ümumi və texniki təyinatlı predmetlər (mebel dəstləri, masalar, kreslolar, kürsülər, dolablar, şkaflar, stellajlar, dəmir seyflər, partalar, daşınan sədlər, asılqanlar, qarderoblar, divanlar, yanmayan şkaflar və yeşiklər, inventar taraları, daşınan çadırlar, çarpayılar, xalçalar, portyerlər), əməyin mühafizəsi üçün uyğunlaşdırılmış xüsusi avadanlıqlar (hidropultlar, stenderlər, əl nərdivanları, maye və dənəvər şeylərin saxlanması üçün xüsusiləşdirilmiş qablar) və bu kimi başqa təsərrüfat inventarları aiddir.

3.7. Torpaq, tikili və avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər kateqoriyası torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış məsrəflər, tikili üzrə kapitallaşdırılmış məsrəflər, avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər sinfindən ibarərdir.

3.7.1. Torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış məsrəflər sinfinə torpaqların yaxşılaşdırılması üzrə əsaslı məsrəflər - kapital qoyuluşu hesabına aparılan torpaq sahələrinin əkin üçün planlaşdırılması, ərazinin kötükdən təmizlənməsi və əkinə hazırlanması, sahələrin daşlardan, kəsəklərdən, alaqlardan və başqa lüzumsuz bitkilərdən təmizlənməsi, kiçik təpəciklərin düzəldilməsi, nohurların təmizlənməsi və bu kimi torpaqların yaxşılaşdırılması işləri (tikinti və quraşdırma işləri ilə əlaqədar olmayan işlər) üzrə əsaslı məsrəfləri aiddir;

3.7.2. Tikili üzrə kapitallaşdırılmış məsrəflər sinfinə təşkilatın mülkiyyətində olan işlərin görülməsi, xidmətlərin göstərilməsi yaxud hər iki məqsəd üçün istifadəyə verilmiş tikilinin balans dəyərini artıran kapitallaşdırılmış məsrəflər aiddir.

3.7.3. Avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər sinfinə təşkilatın mülkiyyətində olan işlərin görülməsi, xidmətlərin göstərilməsi yaxud hər iki məqsəd üçün istismara verilmiş avadanlığın balans dəyərini artıran kapitallaşdırılmış məsrəflər aiddir.

3.8. Bioloji aktivlər kateqoriyası bitkilər və heyvanlar sinfinə bölünür.

3.8.1. Bitkilər sinfinə yaşından asılı olmayaraq mədəni çoxillik əkmələr, bütün növ meyvə və giləmeyvə çoxillik əkmələri (ağaclar və kollar), küçələrdə, meydanlarda, parklarda, bağlarda, müəssisələrin ərazi bağçalarında, yaşayış binalarının həyətlərində və bu kimi başqa yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr, qumsallığın və sahillərin bərkidilməsi məqsədi ilə əkilən çoxillik əkmələr, elmi-tədqiqat institutlarında, botanika bağlarında və bu kimi başqa yerlərdə tədqiqat və başqa məqsədlər üçün əkilən çoxillik əkmələr aiddir. Göstərilən bitkilər sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.8.1.1. qumsallığın və sahillərin bərkidilməsi məqsədi ilə əkilən çoxillik əkmələr;

3.8.1.2. çay plantasiyaları;

3.8.1.3. naringi plantasiyaları;

3.8.1.4. limon və portağal plantasiyaları;

3.8.1.5. sair sitrus bitkiləri;

3.8.1.6. gavalı və gilas ağacları;

3.8.1.7. albalı (gilənar) ağacları;

3.8.1.8. saftalı (hulu) ağacları;

3.8.1.9. alma ağacları;

3.8.1.10. ərik (qaysı) ağacları;

3.8.1.11. toxumla çoxalan sair çoxillik əkmələr;

3.8.1.12. vegetativ üsulla çoxalan sair çoxillik əkmələr;

3.8.1.13. üzümlüklər;

3.8.1.14. moruq, qarağat, böyürtkən, çiyələk;

3.8.1.15. sair giləmeyvə çoxillik əkmələri;

3.8.1.16. küçələrdə, meydanlarda, parklarda, bağlarda, təşkilatın ərazi bağçalarında, yaşayış binalarının həyətlərində və bu kimi başqa yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr;

3.8.1.17. elmi-tədqiqat institutlarında, botanika bağlarında, və bu kimi başqa yerlərdə tədqiqat və başqa məqsədlər üçün əkilən çoxillik əkmələr.

3.8.2. Heyvanlar sinfinə iş heyvanları və məhsuldar heyvanlar aiddir.

Göstərilən heyvanlar sinfi aşağıdakı kimi qruplaşdırılır:

3.8.2.1. İş heyvanları, o cümlədən atlar, öküzlər, dəvələr və başqa iş heyvanları (idman atları və başqa nəqliyyat heyvanları da daxil olmaqla) və bu kimi iş heyvanları;

3.8.2.2. Məsuldar heyvanlar (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və digər damazlıq və döllük heyvanlar).

3.9. Bioloji aktivlər üzrə kapitallaşdırılmış məsrəflər kateqoriyası bitkilər üzrə kapitallaşdırılmış məsrəflər və heyvanlar üzrə kapitallaşdırılmış məsrəflər siniflərindən ibarətdir.

3.9.1. Bitkilər üzrə kapitallaşdırılmış məsrəflər sinfinə çoxillik əkmələrə kapital qoyuluşları üzrə faktiki məsrəflər aiddir. Göstərilən sinif üzrə çəkilmiş faktiki məsrəflər bitkilərin balans dəyərinə əlavə olunur.

3.9.2. Heyvanlar üzrə kapitallaşdırılmış məsrəflər sinfinə iş və məhsuldar heyvanlara kapital qoyuluşları üzrə faktiki məsrəflər aiddir. Göstərilən sinif üzrə çəkilmiş faktiki məsrəflər heyvanların balans dəyərinə əlavə olunur.

3.10. Daşınmaz əmlaka investisiyalar kateqoriyası təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan investisiya məqsədli torpaq və investisiya məqsədli tikili siniflərinə bölünür.

3.10.1. İnvestisiya məqsədli torpaq sinfinə təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan torpaq, meşə, su sahələri və faydalı qazıntı hövzələri aiddir.

3.10.2. İnvestisiya məqsədli tikili sinfinə təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan binalar və onların struktur komponentləri aiddir. Göstərilən binalar və onların struktur komponentləri aşağıdakı kimi qruplaşdırılır:

3.10.2.1. iki mərtəbədən artıq çoxmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.2. divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən, iri blok və panellərdən tikilmiş dəmir-beton karkaslı birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.3. taxta binalardan başqa iki mərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.4. daşdoğranılma, üyüdülmə, kimyəvi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar;

3.10.2.5. divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.6. divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.7. yüngülləşdirilmiş hörgü ilə divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.8. divarı tirdən, şalbandan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı taxta binalar;

3.10.2.9. karkaslı və taxta lövhələrdən yığılmış taxta-metal kostruksiyalı, karkas örtüklü, panel istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.10. divarı gildən, samandan, qamışdan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı binalar;

3.10.2.11. divarları daşdan və bloklardan hörülmüş dəmir-beton, kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar;

3.10.2.12. soyuducu avadanlıqlarla təchiz edilmiş, divarları daşdan və bloklardan hörülmüş, dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar;

3.10.2.13. divarı daşdan və ya kərpicdən hörülmüş dəmir-beton karkaslı və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.10.2.14. divarı daşdan və ya kərpicdən hörülmüş dəmir-beton karkaslı və mərtəbələrarası beton və ya taxta dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.10.2.15. divarı iri panellərdən tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.10.2.16. yüngülləşdirilmiş hörgü ilə divarı kərpicdən, şlak-beton qarışıqlı monolitdən, yüngül şlak-bloklardan tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.10.2.17. divarı iri bloklardan, kərpicdən və ya yüngülləşdirilmiş hörgü ilə kərpicdən, şlak-beton qarışıqlı monolitdən, xırda şlak-bloklardan tikilmiş və mərtəbələrarası taxta dam örtüyünə malik inzibati və yaşayış binaları;

3.10.2.18. divarı tirdən, şalbandan tikilmiş yaşayış binaları;

3.10.2.19. divarı gildən, samandan, qamışdan tikilmiş və taxta lövhələrdən (şitlərdən) yığılmış yaşayış binaları və bu kimi analoji materiallardan tikilmiş və yığılmış yaşayış binaları.

3.11. Daşınmaz əmlaka investisiyalar üzrə kapitallaşdırılmış məsrəflər kateqoriyası təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan investisiya məqsədli torpağa kapital qoyuluşları və investisiya məqsədli tikiliyə kapital qoyuluşları siniflərinə bölünür. Göstərilən siniflər üzrə çəkilən faktiki məsrəflər investisiya məqsədli torpağın və investisiya məqsədli tikilinin balans dəyərinə əlavə olunur.

3.12. Sair uzunmüddətli qeyri-maliyyə aktivləri kateqoriyası kitabxana fondu (bütün növ elmi, bədii, tədris və xüsusi növ ədəbiyyatlar və bu kimi başqa nəşrlər), muzey sərvətləri, məlumat daşıyıcıları (tədris kinofilmləri, maqnit lentləri, maqnit diskləri, kasetlər, proqram daşıyıcıları və bu kimi başqa məlumat daşıyıcıları), heyvanxanalarda və digər analoji təşkilatlarda olan dünya heyvanlarının eksponatları, səhnə vəsaitləri (dekorasiyalar, butaforlar, milli teatr geyimləri, pariklər və bu kimi başqa vəsaitlər) siniflərinə bölünür.

## 4. Əsas fondlara tətbiq edilən amortizasiya normaları

4.1. Düzxətt və azalan qalıq metodu üzrə amortizasiya olunan əsas fondların tam bərpası üçün amortizasiya normaları aşağıdakı qaydada qruplaşdırılır və göstərilən hədlər daxilində müəyyən edilir:

| Sıra №si | Əsas fondun adı | Şifr | Amortizasiya normaları (faizlə) | |
|---|---|---|---|---|
| | | | düzxətt metodu üzrə | azalan qalıq metodu üzrə |
| 1. | Tikili və avadanlıq | 231-2 | | |
| 1.1. | binalar və onların struktur komponentləri | 231-2-1 | | |
| 1.1.1. | iki mərtəbədən artıq çoxmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.1 | 1,7 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| 1.1.2. | divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən, iri blok və panellərdən tikilmiş dəmir-beton karkaslı birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.2 | 1,7 | 5 |
| 1.1.3. | taxta binalar istisna olmaqla iki mərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.3 | 1,7 | 5 |
| 1.1.4. | daşdoğranılma, üyüdülmə, kimyəvi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar; | 231-2-1.4 | 3,4 | 10 |
| 1.1.5. | divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.5 | 3,4 | 10 |
| 1.1.6. | divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.6 | 3,4 | 10 |
| 1.1.7. | yüngülləşdirilmiş hörgü ilə divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.7 | 5,3 | 15 |
| 1.1.8. | divarı tirdən, şalbandan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı taxta binalar; | 231-2-1.8 | 5,3 | 15 |
| 1.1.9. | karkaslı və taxta lövhələrdən yığılmış, taxta-metal kostruksiyalı, karkas örtüklü, panel istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.9 | 7,1 | 20 |
| 1.1.10. | divarı gildən, samandan, qamışdan və bu kimi anoloji materiallardan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı binalar; | 231-2-1.10 | 7,1 | 20 |
| 1.1.11. | divarları daşdan və bloklardan hörülmüş, dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar; | 231-2-1.11 | 5,3 | 15 |
| 1.1.12. | soyuducu avadanlıqlarla təchiz edilmiş, divarları daşdan və bloklardan hörülmüş, dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının | 231-2-1.12 | 7,1 | 20 |

| | | | | |
|---|---|---|---|---|
| | saxlanılması üçün anbar; | | | |
| 1.1.13. | divarı daşdan və ya kərpicdən hörülmüş, dəmir-beton karkaslı və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 231-2-1.13 | 1,7 | 5 |
| 1.1.14. | divarı daşdan və ya kərpicdən hörülmüş dəmir-beton karkaslı və mərtəbələrarası beton və ya taxta dam örtüyünə malik inzibati və yaşayış binaları; | 231-2-1.14 | 1,7 | 5 |
| 1.1.15. | divarı iri panellərdən tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 231-2-1.15 | 1,7 | 5 |
| 1.1.16. | yüngülləşdirilmiş hörgü ilə divarı kərpicdən, şlak-beton qarışıqlı monolitdən, yüngül şlak-bloklardan tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 231-2-1.16 | 1,7 | 5 |
| 1.1.17. | divarı iri bloklardan, kərpicdən və ya yüngülləşdirilmiş hörgü ilə kərpicdən, şlak-beton qarışıqlı monolitdən, xırda şlak-bloklardan tikilmiş və mərtəbələrarası taxta dam örtüyünə malik inzibati və yaşayış binaları; | 231-2-1.17 | 1,7 | 5 |
| 1.1.18. | divarı tirdən, şalbandan tikilmiş, yaşayış binaları; | 231-2-1.18 | 3,4 | 10 |
| 1.1.19. | divarı gildən, samandan tikilmiş, taxta lövhələrdən (şitlərdən) yığılmış və bu kimi analoji materiallardan tikilmiş və yığılmış yaşayış binaları. | 231-2-1.19 | 7,1 | 20 |
| 1.2. | qurğular (tikililər) və onların struktur komponentləri | 231-2-2 | | |
| 1.2.1. | dəmir-beton, beton və daşdan tikilmiş bütün növ konstruksiyalı körpülər; | 231-2-2.1 | 1,7 | 5 |
| 1.2.2. | daşdan tikilmiş dayaqlar üzərində quraşdırılmış bütün növ konstruksiyalı dəmir körpülər; | 231-2-2.2 | 1,7 | 5 |
| 1.2.3. | taxta dayaqlar üzərində quraşdırılmış bütün növ konstruksiyalı dəmir və taxta körpülər; | 231-2-2.3 | 5,3 | 15 |
| 1.2.4. | sement-betondan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri; | 231-2-2.4 | 3,4 | 10 |
| 1.2.5. | asfalt-betondan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri; | 231-2-2.5 | 5,3 | 15 |
| 1.2.6. | metal qırıntılarından istifadə olunmaqla | 231-2-2.6 | 9,1 | 25 |

| | | | | |
|---|---|---|---|---|
| | dəmir-betondan salınmış yollar, meydançalar, uçuş-enmə zolaqları, dönmə dairələri; | | | |
| 1.2.7. | çınqıldan, qəmbər daşlardan salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri; | 231-2-2.7 | 7,1 | 20 |
| 1.2.8. | bağlayıcı tikinti materiallarından istifadə olunmaqla bərk torpaqdan, habelə bunlara oxşar üsullarla salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri; | 231-2-2.8 | 9,1 | 25 |
| 1.2.9. | neft məhsullarının və sürtkü materiallarının saxlanılması üçün dəmir çənlər, rezervuarlar; | 231-2-2.9 | 5,3 | 15 |
| 1.2.10. | neft məhsullarının və sürtkü materiallarının saxlanılması üçün dəmir-beton çənlər, rezervuarlar; | 231-2-2.10 | 3,4 | 10 |
| 1.2.11. | Kimyəvi məhsulların və sürtkü materiallarının saxlanılması üçün dəmir-beton çənlər, rezervuarlar; | 231-2-2.11 | 5,3 | 15 |
| 1.2.12. | sıxılmış qazın saxlanılması üçün yeraltı və yerüstü rezervuarlar; | 231-2-2.12 | 3,4 | 10 |
| 1.2.13. | neft və kimyəvi qalıqların axıdılması üçün yeraltı rezervuarlar; | 231-2-2.13 | 5,3 | 15 |
| 1.2.14. | qum-lil yığan qurğular, şlak yığan qurğular; | 231-2-2.14 | 7,1 | 20 |
| 1.2.15. | daimi daş və dəmir-beton hasarlar; | 231-2-2.15 | 3,4 | 10 |
| 1.2.16. | daimi taxta hasarlar; | 231-2-2.16 | 7,1 | 20 |
| 1.2.17. | nəqliyyat vasitələri üçün keçidlər, asma yollar; | 231-2-2.17 | 7,1 | 20 |
| 1.2.18. | dəmir, dəmir-beton və daş naviqasiya-sahil nişanları; | 231-2-2.18 | 3,4 | 10 |
| 1.2.19. | taxta naviqasiya-sahil nişanları | 231-2-2.19 | 9,1 | 25 |
| 1.2.20. | dəmir siqnal üzgəci; | 231-2-2.20 | 9,1 | 25 |
| 1.2.21. | sahil və üzücü naviqasiya nişanlarıın işiq-texniki, səs-siqnal qurğuları; | 231-2-2.21 | 11,1 | 30 |
| 1.2.22. | dəmir-beton özüllü gəmiqaldıran qurğular; | 231-2-2.22 | 3,4 | 10 |
| 1.2.23. | taxta, dirəklər (payalar) və tir özüllü sahil gəmiqaldıran qurğular; | 231-2-2.23 | 5,3 | 15 |
| 1.2.24. | metal, dəmir-beton və qarışıq materiallardan hazırlanmış üzən tərsanələr; | 231-2-2.24 | 3,4 | 10 |
| 1.2.25. | metal, dəmir-beton və qarışıq materiallardan hazırlanmış tərsanələr; | 231-2-2.25 | 1,7 | 5 |
| 1.2.26. | hovuzlar, novlar; | 231-2-2.26 | 1,7 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| 1.2.27. | heykəllər, xatirə lövhələri, bütün növ atraksionlar və bu kimi analoji qurğular; | 231-2-2.27 | 11,1 | 30 |
| 1.2.28. | stadionlar, idman meydançaları, xüsusi stendlər, habelə bağlarda (bağçalarda), parklarda, digər ictimai yerlərdə quraşdırılan, tikilən və salınan fəvvarələr, hovuzlar; | 231-2-2.28 | 7,1 | 20 |
| 1.2.29. | taxılın müvəqqəti saxlanılması üçün özülü torpaq və çınqıldan hazırlanmış asfalt meydançalar | 231-2-2.29 | 11,1 | 30 |
| 1.2.30. | özülü betondan hazırlanmış taxılın müvəqqəti saxlanılması üçün özülü betondan hazırlanmış asfalt meydançalar | 231-2-2.30 | 9,1 | 25 |
| 1.2.31. | kanalizasiya-nasos stansiyaları | 231-2-2.31 | 3,4 | 10 |
| 1.2.32. | Su-nasos stansiyaları | 231-2-2.32 | 3,4 | 10 |
| 1.2.33. | dəmir-betondan hazırlanmış üfüqi duruldueu hovuzlar və çənlər | 231-2-2.33 | 9,1 | 25 |
| 1.2.34. | dəmir-betondan hazırlanmış şaquli və iki yaruslu duruldueu hovuzlar və çənlər | 231-2-2.34 | 3,4 | 10 |
| 1.2.35. | kərpicdən tikilmiş duruldueu hovuzlar və çənlər | 231-2-2.35 | 9,1 | 25 |
| 1.2.36. | dəmir-beton rezervuarlara malik olan kərpicdən və dəmir-betondan tikilmiş su qüllələri | 231-2-2.36 | 3,4 | 10 |
| 1.2.37. | metal rezervuarlara malik olan kərpicdən tikilmiş su qüllələri | 231-2-2.37 | 3,4 | 10 |
| 1.2.38. | metaldan hazırlanmış su qüllələri | 231-2-2.38 | 5,3 | 15 |
| 1.2.39. | karkası polad konstruksiyasından hazırlanmış şüşələnmiş qış istixanaları | 231-2-2.39 | 5,3 | 15 |
| 1.2.40. | karkası korroziyayaya davamlı materialdan hazırlanmış yaz istixanaları | 231-2-2.40 | 3,4 | 10 |
| 1.2.41. | karkası taxta-metal konstruksiyasından hazırlanmış polietilen örtüklü istixanalar | 231-2-2.41 | 7,1 | 20 |
| 1.2.42. | karkası taxtadan hazırlanmış polietilen örtüklü istixanalar | 231-2-2.42 | 11,1 | 30 |
| 1.2.43. | daşdan tikilmiş peyin anbarları | 231-2-2.43 | 5,3 | 15 |
| 1.2.44. | taxtadan tikilmiş peyin anbarları; | 231-2-2.44 | 9,1 | 25 |
| 1.2.45. | binası və avadanlığı daxil olmaqla yanacaqdoldurma məntəqələri; | 231-2-2.45 | 9,1 | 25 |
| 1.2.46. | heyvanların saxlanılması üçün tövlələr; quraşdırılmış hovuzlar; | 231-2-2.46 | 11,1 | 30 |
| 1.2.47. | silos xəndəkləri və çalaları, quraşdırılmış | 231-2-2.47 | 9,1 | 25 |

| | | | | |
|---|---|---|---|---|
| | hovuzlar; | | | |
| 1.2.48. | Torpaq sututarları | 231-2-2.48 | 7,1 | 20 |
| 1.2.49 | Filtrsiz artezian quyuları | 231-2-2.49 | 7,1 | 20 |
| 1.2.50 | Filtrli artezian quyuları | 231-2-2.50 | 9,1 | 25 |
| 1.2.51 | suçıxaran qurğular; | 231-2-2.51 | 7,1 | 20 |
| 1.2.52. | metropoliten stansiyaları; | 231-2-2.52 | 1,7 | 5 |
| 1.2.53. | metropoliten tunelləri; | 231-2-2.53 | 1,7 | 5 |
| 1.2.54. | metropolitenin yerüstü vestibülləri; | 231-2-2.54 | 1,7 | 5 |
| 1.2.55. | bütün növ konstruksiyalı dəmir yolu tunelləri; | 231-2-2.55 | 1,7 | 5 |
| 1.2.56. | piyada körpüləri və tunelləri; | 231-2-2.56 | 1,7 | 5 |
| 1.2.57. | betondan və asbestsementdən salınmış telefon kanalizasiyaları; | 231-2-2.57 | 3,4 | 10 |
| 1.2.58. | peyk rabitəsi üçün tam dönərli antenalar; | 231-2-2.58 | 9,1 | 25 |
| 1.2.59. | radio-televiziya güllələri, polad radiodirəklər və polad antena dirəkləri; | 231-2-2.59 | 3,4 | 10 |
| 1.2.60. | taxta dirəklər; | 231-2-2.60 | 11,1 | 30 |
| 1.2.61. | dəmir-betondan və poladdan hazırlanmış xüsusi radio-televiziya güllələri; | 231-2-2.61 | 1,7 | 5 |
| 1.2.62. | dəmir-betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan hovuzlar; | 231-2-2.62 | 3,4 | 10 |
| 1.2.63. | dəmir-betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular; | 231-2-2.63 | 3,4 | 10 |
| 1.2.64. | taxtadan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular; | 231-2-2.64 | 11,1 | 30 |
| 1.2.65. | metaldan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular; | 231-2-2.65 | 11,1 | 30 |
| 1.2.66. | betondan hazırlanmış suyun aerasiyası üçün nəzərdə tutulan qurğular; | 231-2-2.66 | 7,1 | 20 |
| 1.2.67. | dəmir-beton konstruksiyasından hazırlanmış buxarlandırıcı soyuducu qurğular və qülləli soyuducu qurğular; | 231-2-2.67 | 5,3 | 15 |
| 1.2.68. | metal konstruksiyasından hazırlanmış buxarlandırıcı soyuducu qurğular və qülləli soyuducu qurğular; | 231-2-2.68 | 9,1 | 25 |
| 1.2.69. | asbest-sement və ya suya davamlı taxta konstruksiyaya malik olan buxarlandırıcı | 231-2-2.69 | 11,1 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| | soyuducu qurğular və qülləli soyuducu qurğular; | | | |
| 1.2.70. | daş və dəmir-betondan tikilmiş tüstü bacaları; | 231-2-2.70 | 1,7 | 5 |
| 1.2.71. | metaldan hazırlanmış tüstü bacaları; | 231-2-2.71 | 5,3 | 15 |
| 1.2.72. | dəmir-beton və metal rezervuara malik olan bitum anbarı, | 231-2-2.72 | 5,3 | 15 |
| 1.2.73. | kömür bunkerləri; | 231-2-2.73 | 1,7 | 5 |
| 1.2.74. | sair qurğular, o cümlədən su kəməri üçün təmizləyici qurğular kompleksi, suyumşaldıcılar, habelə 3.4.2.-ci bənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan başqa qurğular. | 231-2-2.74 | 5,3 | 15 |
| 1.3 | ötürücü qurğular və onların struktur komponentləri | 231-2-3 | | |
| 1.3.1. | metal və dəmir-beton dayaqlar üzərində qurulmuş qatarlar üçün elektrikötürücü qurğular şəbəkəsi; | 231-2-3.1 | 3,4 | 10 |
| 1.3.2. | metal və dəmir-beton dayaqlar üzərində qurulmuş trolleybus və tramvaylar üçün elektrikötürücü qurğular şəbəkəsi; | 231-2-3.2 | 7,1 | 20 |
| 1.3.3. | taxta dayaqlar üzərində qurulmuş trolleybus və tramvaylar üçün elektrikötürücü qurğular şəbəkəsi; | 231-2-3.3 | 11,1 | 30 |
| 1.3.4. | metal və dəmir-beton dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dək olan elektrikötürücü naqillər; | 231-2-3.4 | 3,4 | 10 |
| 1.3.5. | metal və dəmir-beton dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dan yuxarı olan elektrikötürücü naqillər; | 231-2-3.5 | 1,7 | 5 |
| 1.3.6. | taxta dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dək olan elektrikötürücü naqillər; | 231-2-3.6 | 5,3 | 15 |
| 1.3.7. | taxta dayaqlar üzərində qurulmuş gərginliyi 35 kvt-dan yuxarı olan elektrikötürücü naqillər; | 231-2-3.7 | 5,3 | 15 |
| 1.3.8. | qurğuşun örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.8 | 1,7 | 5 |
| 1.3.9. | qurğuşun örtüklü suyun altında çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.9 | 5,3 | 15 |
| 1.3.10. | alüminium örtüklü yerin altında çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.10 | 3,4 | 10 |

| | | | | |
|---|---|---|---|---|
| 1.3.11. | alüminium örtüklü binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.11 | 1,7 | 5 |
| 1.3.12. | plastmas örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dək olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.12 | 5,3 | 15 |
| 1.3.13. | qurğuşun örtüklü yerin altında, binalarda və onların struktur komponentlərində çəkilmiş gərginliyi 10 kvt-dan yuxarı olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.13 | 3,4 | 10 |
| 1.3.14. | qurğuşun örtüklü suyun altında çəkilmiş gərginliyi 10 kvt-dan yuxarı olan elektrikötürücü kabel naqilləri; | 231-2-3.14 | 5,3 | 15 |
| 1.3.15. | metal örtüklü yerin altında və kanalizasiya xətlərində çəkilmiş rabitə kabel naqilləri; | 231-2-3.15 | 3,4 | 10 |
| 1.3.16. | metal örtüklü dayaqlar üzərində asılmış, binaların və onların struktur komponentlərinin divarlarından çəkilmiş rabitə kabel naqilləri; | 231-2-3.16 | 7,1 | 20 |
| 1.3.17 | plastmas örtüklü dayaqlar üzərində asılmış, binaların və onların struktur komponentlərinin divarlarından çəkilmiş rabitə kabel naqilləri; | 231-2-3.17 | 9,1 | 25 |
| 1.3.18 | plastmas örtüklü yerin altında və kanalizasiya xətlərində çəkilmiş rabitə kabel naqilləri; | 231-2-3.18 | 9,1 | 25 |
| 1.3.19. | sair rabitə kabel naqilləri; | 231-2-3.19 | 9,1 | 25 |
| 1.3.20. | yüksək tezlikli dalğaların, radio dalğalarının və sair rabitə dalğalarının ötürülməsi üçün nəzərdə tutulmuş qurğular; | 231-2-3.20 | 9,1 | 25 |
| 1.3.21. | çuqun qaz kəmərləri; | 231-2-3.21 | 5,3 | 15 |
| 1.3.22. | qaztənizlmləyici məntəqələrin avadanlıqları nəzərə alınmamaqla polad qaz kəmərləri və onların üzərində olan qurğular; | 231-2-3.22 | 3,4 | 10 |
| 1.3.23. | qeyri-metal qaz kəmərləri; | 231-2-3.23 | 3,4 | 10 |
| 1.3.24. | keramika materiallarından və çuqundan hazırlanmış kanalizasiya xətləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları; | 231-2-3.24 | 3,4 | 10 |
| 1.3.25. | digər materiallardan hazırlanmış kanalizasiya xətləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları; | 231-2-3.25 | 5,3 | 15 |

| | | | | |
|---|---|---|---|---|
| 1.3.26. | çuqundan hazırlanmış su kəmərləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları; | 231-2-3.26 | 1,7 | 5 |
| 1.3.27. | digər materiallardan hazırlanmış su kəmərləri və bunlara aid olan bütün növ aralıq avadanlıqları və qurğuları; | 231-2-3.27 | 5,3 | 15 |
| 1.3.28. | ümumi zavod təyinatlı, sexlərarası (sahələrarası) texnoloji və çirkab suların axıdılması üçün nəzərdə tutulmuş boru kəmərləri; | 231-2-3.28 | 11,1 | 30 |
| 1.3.29. | sair ötürücü qurğular, o cümlədən neft məhsulları üçün boru kəmərləri, istilik sistemi üçün boru kəmərləri, habelə 3.4.3.-cü bənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan başqa ötürücü qurğular. | 231-2-3.29 | 3,4 | 10 |
| 1.4. | Maşın və avadanlıqlar | 231-2-4 | | |
| 1.4.1. | güc maşınları və avadanlıqları, o cümlədən elektrik enerjisi və istilik hasil edən maşın-generatorlar və müxtəlif növ enerji (onlardan su enerjisi, külək enerjisi, istilik enerjisi, elektrik enerjisi, günəş enerjisi) hasil edən maşın-mühərriklər və bu kimi başqa güc maşınları və avadanlıqları | 231-2-4.1 | 9,1 | 25 |
| 1.4.2. | iş maşınları və avadanlıqları, o cümlədən istehsalat prosesində mexaniki mühərriklərin, insan və heyvan gücünün köməyi ilə əmək predmetlərinin yerdəyişməsinə, istehsalat xarakterli işlərin (xidmətlərin) göstərilməsi prosesində əmək predmetlərinə mexaniki, termiki və kimyəvi təsir göstərmək üçün nəzərdə tutulmuş, maşınlar və avadanlıqlar, həmçinin poliqrafiya sahəsində, yol-tikinti, sualtı-texniki işlərdə və digər sahələrdə istifadə olunan başqa maşınlar və avadanlıqlar | 231-2-4.2 | 11,1 | 30 |
| 1.4.3. | ölçü cihazları, o cümlədən dozatorlar, ampermetrlər, barometrlər, vatmetrlər, suölçənlər, vakuumetrlər, vaporimetrlər, voltmetrlər, hündürlükölçənlər, qalvonometrlər, geodeziya cihazları, hiqroskoplar, indikatorlar, kompaslar, manometrlər, xronometrlər, xüsusi tərəzilər, kassa aparatları və başqa ölçü cihazları | 231-2-4.3 | 9,1 | 25 |
| 1.4.4. | tənzimləyici cihazlar və qurğular, o | 231-2-4.4 | 11,1 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| | cümlədən oksigenli tənəffüs cihazları, elektrik, pnevmatik və hidravlik tənzimləyən cihazlar, avtomatik idarəetmə pultları, blokirovka və mərkəzləşdirmə aparatları, dispetçer nəzarəti üçün xətti qurğular və bu kimi başqa tənzimləyici cihazlar və qurğular | | | |
| 1.4.5. | laboratoriya avadanlıqları, o cümlədən pirometrlər, nizamlayıcılar, kalorimetrlər, nəmliyi müəyyən edən cihazlar, distillə qazanları, laboratoriya koprları, mikroskoplar, termostatlar, stabilizatorlar, sorucu şkaflar, mikroskoplar və başqa laboratoriya avadanlıqları | 231-2-4.5 | 11,1 | 30 |
| 1.4.6. | hesablama texnikası, o cümlədən elektron hesablayıcılar, idarəçi və analoji maşınlar (kompüterlər, printerlər, skanerlər, surətçıxaran maşınlar, fakslar, telefon aparatları), rəqəmli hesablayıcı maşınlar və qurğular bu kimi başqa hesablama texnikası | 231-2-4.6 | 11,1 | 30 |
| 1.4.7. | tibbi avadanlıqlar, o cümlədən diş həkimləri üçün kreslolar, cərrahiyyə stolları, xüsusi avadanlıq bərkidilmiş çarpayılar, xüsusi dezinfeksiya avadanlıqları, qanköçürmə stansiyaları və bu kimi başqa tibbi avadanlıqlar | 231-2-4.7 | 11,1 | 30 |
| 1.4.8. | Elektrik mühərrikləri gücü100 kvt-a qədər | 231-2-4.8 | 9,1 | 25 |
| 1.4.9. | Elektrik mühərrikləri gücü100 kvt-dan yuxarı | 231-2-4.9 | 7,1 | 20 |
| 1.4.10. | Dizel-qeneratorlar | 231-2-4.10 | 9,1 | 25 |
| 1.4.11. | Metalkəsən dəzgahlar | 231-2-4.11 | 3,4 | 10 |
| 1.4.12. | Körpülü kranlar | 231-2-4.12 | 3,4 | 10 |
| 1.4.13. | Üzən nasos stansiyaları | 231-2-4.13 | 9,1 | 25 |
| 1.4.14. | Səyyar akkumulyatorlar | 231-2-4.14 | 11,1 | 30 |
| 1.4.15. | Qaynaq aqreqatları | 231-2-4.15 | 11,1 | 30 |
| 1.4.16. | Qazma və təmir aqreqatları | 231-2-4.16 | 9,1 | 25 |
| 1.4.17. | emalatxanalarda, kabinetlərdə, və otaqlarda quraşdırılmış avadanlıqlar, kinoaparatlar, işıqlandırma aparatları, səhnə avadanlıqları, musiqi alətləri, televizorlar, radio-aparatlar, xüsusi elmi-tədqiqat avadanlıqları, avtomatlaşdırılmış telefon stansiyalarının avadanlıqları, avtomobillərdə və ya at arabalarında | 231-2-4.17 | 11,1 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| | yerləşdirilən yanğınsöndürən maşınlar və avadanlıqlar, mexanikləşdirilmiş yanğın nəqliyyatları, paltaryuyan və paltartikən maşınlar, soyuducular, kondisionerlər, tozsoranlar, dispenserlər, habelə 3.4.4.-cü bənddə göstərilən məqsədlər üçün istifadəsi nəzərdə tutulan bu kimi başqa maşın və avadanlıqlar, alətlər (elektrik enerjisinin, sıxılmış havanın və başqalarının vasitəçiliyi ilə işləyən mexanikləşdirilmiş əl əməyi alətləri, kəsmək, zərbə endirmək, əzmək və bərkitmək kimi işləri görmək, həmçinin maşınlara quraşdırılmış və materiallar emal etmək üçün işlədilən mexanikləşdirilməmiş əl əməyi alətləri). | | | |
| 2. | nəqliyyat vasitələri | 231-3 | | |
| 2.1 | təyyarələr, vertolyotlar və bu kimi başqa hava nəqliyyatı vasitələri | 231-3-1 | 9,1 | 25 |
| 2.2 | elektrovozlar, teplovozlar, parovozlar, motovozlar, elektrik qatarları, metropoliten qatarları, metaldan hazırlanmış sərnişin vaqonları (yumşaq, bərk kupe və bərk açıq tipli), taxta kuzovlu sərnişin vaqonları (yumşaq, bərk kupe və bərk açıq tipli), örtülü yük vaqonları, açıq vaqonları, sisternlər, refrejeratorlu və izotermik vaqonlar, platformalar və bu kimi başqa dəmiryol nəqliyyatı vasitələri | 231-3-2 | 9,1 | 25 |
| 2.3 | teploxodlar, paroxodlar, dizel elektroxodları, barjalar, barkalar, bərələr, sərnişin və yük gəmiləri, xidmətedici və köməkçi gəmilər, tankerlər, katerlər, neft tullantıları və zibilyığan gəmilər, xilasedici gəmilər, üzən körpülər, yelkənli gəmilər, dəniz yedəkləri və bu kimi başqa su nəqliyyatı vasitələri | 231-3-3 | 7,1 | 20 |
| 2.4 | metal və taxta vaqonları, trolleybuslar, tramvaylar, avtobuslar, refrejeratorlar və bu kimi başqa xidmət nəqliyyatları | 231-3-4 | 5,3 | 15 |
| 2.5 | İstehsalat nəqliyyatları | 231-3-5 | | |
| 2.5.1 | Çalovun həcmi 0,4 $m^3$-a qədər birçalovlu tırtllı hərəkət mexanizmli ekskavatorlar | 231-3-5.1 | 11,1 | 30 |
| 2.5.2 | Çalovun həcmi 0,4-1,4 $m^3$-a qədər və yuxarı birçalovlu tırtllı hərəkət mexanizmli | 231-3-5.2 | 9,1 | 25 |

| | | | | |
|---|---|---|---|---|
| | ekskavatorlar | | | |
| 2.5.3 | Çalovun həcmi 0,25 $m^3$-a qədər birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar | 231-3-5.3 | 11,1 | 30 |
| 2.5.4 | Çalovun həcmi 0,25-0,5 $m^3$-a qədər birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar | 231-3-5.4 | 11,1 | 30 |
| 2.5.5 | Çalovun həcmi 0,5-1,4 $m^3$-a qədər və yuxarı birçalovlu təkətli hərəkət mexanizmli ekskavatorlar | 231-3-5.5 | 9,1 | 25 |
| 2.5.6 | Avtoqreyderlər | 231-3-5.6 | 11,1 | 30 |
| 2.5.7 | Avtoskreperlər | 231-3-5.7 | 11,1 | 30 |
| 2.5.8 | Qoşqulu skreperlər | 231-3-5.8 | 11,1 | 30 |
| 2.5.9 | Tırtıllı traktorlar | 231-3-5.9 | 11,1 | 30 |
| 2.5.10 | Təkərli traktorlar | 231-3-5.10 | 11,1 | 30 |
| 2.5.11 | buldozerlər, kombaynlar, elektrokarlar, motorollerlər, idman üçün nəzərdə tutulmayan motosikllar və velosipedlər, mopedlər, araba nəqliyyatları və bu kimi başqa istehsalat nəqliyyatları | 231-3-5.11 | 11,1 | 30 |
| 2.6 | Avtomobil nəqliyyatları | 231-3-6 | | |
| 2.6.1. | Yükgötürmə qabilyyəyi 25 tona qədər olan yük avtomobilləri | 231-3-6.1 | 11,1 | 30 |
| 2.6.2. | Yükgötürmə qabilyyəyi 25 tondan yuxarı yük avtomobilləri | 231-3-6.2 | 9,1 | 25 |
| 2.6.3. | Avtokranlar | 231-3-6.3 | 9,1 | 25 |
| 2.6.4. | Avtobetonqarışdırıcılar | 231-3-6.4 | 11,1 | 30 |
| 2.6.5. | Qoşqu və yarımqoşqular | 231-3-6.5 | 9,1 | 25 |
| 2.6.6. | Minik avtomobilləri | 231-3-6.6 | 11,1 | 30 |
| 2.7. | idman maşınları, idman motosiklları, idman velosipedləri və bu kimi başqa idman nəqliyyatları | 231-3-7 | 11,1 | 30 |
| 3. | Sair torpaq, tikili və avadanlıqlar | 231-4 | | |
| 3.1 | **təsə**rrüfat inventarları | 231-4-1 | | |
| 3.1.1 | iş vaxtı fəaliyyətin asan yerinə yetirilməsinə kömək etmək üçün nəzərdə tutulan ümumi və texniki təyinatlı predmetlər (mebel dəstləri, masalar, kreslolar, kürsülər, | 231-4-1.1 | 11,1 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| | dolablar, şkaflar, stellajlar, dəmir seyflər, partalar, daşınan sədlər, asılqanlar, qarderoblar, divanlar, yanmayan şkaflar və yeşiklər, inventar taraları, daşınan çadırlar, çarpayılar, xalçalar, portyerlər), əməyin mühafizəsi üçün uyğunlaşdırılımış xüsusi avadanlıqlar (hidropultlar, stenderlər, əl nərdivanları, maye və dənəvər şeylərin saxlanması üçün xüsusiləşdirilmiş qablar) və bu kimi başqa təsərrüfat inventarları | | | |
| 4. | Torpaq, tikili və avadanlıq üzrə kapitallaşdırılmış məsrəflər | 233 | | |
| 4.1. | torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış məsrəflər | 233-1 | | |
| 4.1.1 | torpaqların yaxşılaşdırılması üzrə əsaslı məsrəflər - kapital qoyuluşu hesabına aparılan torpaq sahələrinin əkin üçün planlaşdırılması, ərazinin kötükdən təmizlənməsi və əkinə hazırlanması, sahələrin daşlardan, kəsəklərdən, alaqlardan və başqa lüzumsuz bitkilərdən təmizlənməsi, kiçik təpəciklərin düzəldilməsi, nohurların təmizlənməsi və bu kimi torpaqların yaxşılaşdırılması işləri (tikinti və quraşdırma işləri ilə əlaqədar olmayan işlər) üzrə əsaslı məsrəflər | 233-1.1 | 11,1 | 30 |
| 5. | Bioloji aktivlər | 234 | | |
| 5.1. | bitkilər | 234-1 | | |
| 5.1.1. | qumsallığın və sahillərin bərkidilməsi məqsədi ilə əkilən çoxillik əkmələr; | 234-1.1 | 3,4 | 10 |
| 5.1.2. | çay plantasiyaları | 234-1.2 | 1,7 | 5 |
| 5.1.3. | naringi plantasiyaları | 234-1.3 | 5,3 | 15 |
| 5.1.4. | limon və portağal plantasiyaları | 234-1.4 | 9,1 | 25 |
| 5.1.5. | sair sitrus plantasiyaları | 234-1.5 | 7,1 | 20 |
| 5.1.6. | gavalı və gilas ağacları | 234-1.6 | 5,3 | 15 |
| 5.1.7. | albalı (gilənar) ağacları | 234-1.7 | 7,1 | 20 |
| 5.1.8. | saftalı (xulu) ağacları | 234-1.8 | 9,1 | 25 |
| 5.1.9. | alma ağacları | 234-1.9 | 9,1 | 25 |
| 5.1.10. | ərik (qayısı) | 234-1.10 | 3,4 | 10 |
| 5.1.11. | toxumla çoxalan sair çoxillik əkmələr | 234-1.11 | 5,3 | 15 |
| 5.1.12. | vegetativ üsulla çoxalan sair çoxillik əkmələr | 234-1.12 | 9,1 | 25 |
| 5.1.13. | üzümlüklər; | 234-1.13 | 3,4 | 10 |
| 5.1.14. | moruq, qarağat, böyürtkən, çiyələk; | 234-1.14 | 11,1 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| 5.1.15. | sair giləmeyvə çoxillik əkmələri; | 234-1.15 | 11,1 | 30 |
| 5.1.16. | küçələrdə, meydanlarda, parklarda, bağlarda, təşkilatın ərazi bağçalarında, yaşayış binalarının həyətlərində və bu kimi başqa yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr; | 234-1.16 | 5,3 | 15 |
| 5.1.17. | elmi-tədqiqat institutlarında, botanika bağlarında, və bu kimi başqa yerlərdə tədqiqat və başqa məqsədlər üçün əkilən çoxillik əkmələr | 234-1.17 | 3,4 | 10 |
| 5.2. | heyvanlar | 234-2 | | |
| 5.2.1. | atlar, öküzlər, dəvələr və başqa iş heyvanları (idman atları və başqa nəqliyyat heyvanları da daxil olmaqla) və bu kimi iş heyvanları | 234-2.1 | 11,1 | 30 |
| 6. | Daşınmaz əmlaka investisiyalar | 236 | | |
| 6.1. | İnvestisiya məqsədli tikili | 236-1 | | |
| 6.1.1. | təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan binalar və onların struktur komponentləri: | 236-1.1 | | |
| 6.1.1.1. | iki mərtəbədən artıq çoxmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.1 | 1,7 | 5 |
| 6.1.1.2. | divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən, iri blok və panellərdən tikilmiş dəmir-beton karkaslı birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.2 | 1,7 | 5 |
| 6.1.1.3. | taxta binalar istisna olmaqla iki mərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.3 | 1,7 | 5 |
| 6.1.1.4. | daşdoğranılma, üyüdülmə, kimyəvi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar; | 236-1.4 | 3,4 | 10 |
| 6.1.1.5. | divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.5 | 3,4 | 10 |
| 6.1.1.6. | divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.6 | 3,4 | 10 |

| | | | | |
|---|---|---|---|---|
| 6.1.1.7. | yüngülləşdirilmiş hörgü ilə divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.7 | 5,3 | 15 |
| 6.1.1.8. | divarı tirdən, şalbandan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı taxta binalar; | 236-1.8 | 5,3 | 15 |
| 6.1.1.9. | karkaslı və taxta lövhələrdən yığılmış, taxta-metal kostruksiyalı, karkas örtüklü, panel istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.9 | 7,1 | 20 |
| 6.1.1.10. | gildən, samandan, qamışdan tikilmiş istehsal və qeyri-istehsal təyinatlı binalar; | 236-1.10 | 7,1 | 20 |
| 6.1.1.11. | divarları daşdan və bloklardan hörülmüş dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar; | 236-1.11 | 5,3 | 15 |
| 6.1.1.12. | soyuducu avadanlıqlarla təchiz edilmiş, divarları daşdan və bloklardan hörülmüş, dəmir-beton və kərpic sütunlardan tikilmiş, damı dəmir-beton təbəqələrlə və ya şiferlə örtülmüş kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbar; | 236-1.12 | 7,1 | 20 |
| 6.1.1.13. | divarı daşdan və ya kərpicdən hörülmüş, dəmir-beton karkaslı və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 236-1.13 | 1,7 | 5 |
| 6.1.1.14. | divarı daşdan və ya kərpicdən hörülmüş, dəmir-beton karkaslı və mərtəbələrarası beton və ya taxta dam örtüyünə malik inzibati və yaşayış binaları; | 236-1.14 | 1,7 | 5 |
| 6.1.1.15. | divarı iri panellərdən tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 236-1.15 | 1,7 | 5 |
| 6.1.1.16. | yüngülləşdirilmiş hörgü ilə divarı kərpicdən, şlak-beton qarışıqlı monolitdən, yüngül şlak-bloklardan tikilmiş və mərtəbələrarası dəmir-beton dam örtüyünə malik inzibati və yaşayış binaları; | 236-1.16 | 1,7 | 5 |
| 6.1.1.17. | divarı iri bloklardan, kərpicdən və ya yüngülləşdirilmiş hörgü ilə kərpicdən, şlak-beton qarışıqlı monolitdən, xırda şlak-bloklardan tikilmiş və mərtəbələrarası taxta dam örtüyünə malik inzibati və yaşayış | 236-1.17 | 1,7 | 5 |

| | | | | |
|---|---|---|---|---|
| | binaları; | | | |
| 6.1.1.18. | divarı tirdən, şalbandan tikilmiş yaşayış binaları; | 236-1.18 | 3,4 | 10 |
| 6.1.1.19. | divarı gildən, samandan tikilmiş, taxta lövhələrdən (şitlərdən) yığılmış yaşayış binaları və bu kimi analoji materiallardan tikilmiş, yığılmış yaşayış binaları; | 236-1.19 | 7,1 | 20 |
| 7. | Daşınmaz əmlaka investisiyalar üzrə kapitallaşdırılmış məsrəflər | 238 | | |
| 7.1. | Təşkilatın mülkiyyətində olan, icarə ödənişlərinin əldə edilməsi və ya kapitalın artırılması, yaxud hər iki məqsəd üçün saxlanılan investisiya məqsədli torpağa kapital qoyuluşları; | 238-1 | 11,1 | 30 |

5. Qeyri-maddi aktivlərin strukturu və onlara tətbiq edilən amortizasiya normalarının hesablanması

5.1. Qeyri-maddi aktivlər kateqoriyası qeyri-maddi aktivlər sinfindən və qeyri-maddi aktivlər üzrə kapitallaşdırılmış məsrəflər sinfindən ibarətdir.

5.2. Qeyri-maddi aktivlər sinfinə elmi-tədqiqat və təcrübə-konstruktor işləri, proqram təminatı, patentlər, müəllif hüquqları, lisenziyalar, ticarət markaları, torpaq sahələrindən, təbii ehtiyatlardan istifadə hüquqları, inhisar və imtiyaz hüquqları, əmtəə nişanları və bu kimi digər qeyri-maddi aktivlər daxildir.

5.3. Məhdud istifadə müddətli qeyri-maddi aktivlər üzrə amortizasiya norması təşkilat tərəfindən həmin qeyri-maddi aktivlərin dəyərinin onun istismar müddətinə bölünməklə müəyyən edilir.

5.4. Qeyri-maddi aktivlər üzrə kapitallaşdırılmış məsrəflər sinfinə aid edilən çəkilən faktiki məsrəflər qeyri-maddi aktivlərin balans dəyərinə əlavə olunur.

6. Amortizasiya ayırmalarının müəyyən edilməsi

6.1. Bu təlimatın 4.1.-ci və 5.1-ci bəndləri ilə müvafiq kateqoriyalara və siniflərə aid edilən əsas fondların və qeyri-maddi aktivlərin hər bir qrupu üzrə müəyyən edilmiş normalara əsasən hesablanmış amortizasiya məbləğləri təşkilatın xərclərinə daxil edilir.

6.2. Əsas fondlara və qeyri-maddi aktivlərə düzxətt və azalan qalıq metodu əsasında amortizasiya ayırmalarının hesablanması ildə bir dəfə həyata keçirilir.

6.3. Təşkilatlar amortizasiyanın düzxətt metodu əsasında illik amortizasiya normalarını əsas fondların və qeyri-maddi aktivlərin ilkin dəyərinə vurmaqla hər bir qrup üzrə cəmi yığılmış amortizasiya məbləğlərini müəyyən edir.

6.4. Amortizasiyanın azalan qalıq metodu üzrə normalar bu təlimatla düz xətt metoduna əsasən əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq olunan amortizasiya normalarına görə istismar müddəti saxlanılmaqla müəyyən edilir.

6.5. Təşkilatlar amortizasiyanın azalan qalıq metodu əsasında illik amortizasiya normalarını əsas fondların və qeyri-maddi aktivlərin balans dəyərinə vurmaqla hər bir qrup üzrə cəmi yığılmış amortizasiya məbləğlərini müəyyən edir.

6.6. Amortizasiyanın azalan qalıq metodu əsasında amortizasiya ayırmalarını hesablayan təşkilatlar tərəfindən istismar müddəti başa çatmış və ilin əvvəlinə "Maliyyə vəziyyəti haqqında hesabat"da balans dəyəri ilkin dəyərinin 5 faizindən aşağı olan əsas fondlar və qeyri-maddi aktivlər üzrə ilin sonunda amortizasiya hesablanılmır.

6.7. Əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq olunan amortizasiya metodu ən azından hər bir illik hesabat tarixində yenidən nəzərdən keçirilməlidir. Əsas fondlar və qeyri-maddi aktivlərdə təcəssüm olunmuş gələcək iqtisadi səmərənin və ya xidmət potensialının gözlənilən istehlak sxemində əhəmiyyətli dəyişikliklər baş verdikdə, həmin dəyişiklikləri əks etdirmək üçün tətbiq edilən amortizasiya metodu dəyişdirilməlidir. Bu zaman təşkilat əsas fondlar və qeyri-maddi aktivlərə bağlı gələcək iqtisadi səmərələrin və ya xidmət potensialının istifadəsi üzrə ehtimal olunan istehlak sxemini daha dəqiq əks etdirən metodu seçir.

6.8. İstismara verilmiş əsas fondlara və qeyri-maddi aktivlərə illik amortizasiya ayırmalarının hesablanması üçün aşağıdakı hesabat dövrləri müəyyən edilir:

6.8.1. İl ərzində oktyabr ayının 1-dək balansa alınmış əsas fondlara və qeyri-maddi aktivlərə müəyyən olunmuş normalar hədlərində hesablanmış amortizasiya ayırmaları həmin hesabat dövründə təşkilatın xərcinə aid edilir;

6.8.2. Cari hesabat dövrünün oktyabr ayından sonra balansa alınmış əsas fondlara və qeyri-maddi aktivlərə amortizasiya ayırmaları hesablanmır, həmin aktivlər üzrə müəyyən olunmuş normalar hədlərində amortizasiya ayırmaları növbəti hesabat dövründən başlayaraq hesablanılır və təşkilatın xərcinə aid edilir.

## 7. Amortizasiya olunmayan əsas fondlar və qeyri-maddi aktivlər

7.1. Aşağıdakı əsas fondlara və qeyri-maddi aktivlərə amortizasiya hesablanmır:

7.1.1. torpaq kateqoriyasına aid olan əsas fondlara;

7.1.2. nadir memarlıq və incəsənət abidəsi olan binalara və onların struktur komponentlərinə, qurğulara və onların struktur komponentlərinə, muzey sərvətlərinə;

7.1.3. elmi, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və auditoriyalarda istifadə edilən avadanlıqlara, eksponatlara, nümunələrə, modellərə, maketlərə və bu kimi başqa vəsaitlərə;

7.1.4. tikili üzrə kapitallaşdırılmış məsrəflərə;

7.1.5. avadanlıq üzrə kapitallaşdırılmış məsrəflərə;

7.1.6. istismar vaxtı çatmayan çoxillik əkmələrə;

7.1.7. məhsuldar heyvanlara (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və digər damazlıq və döllük heyvanlar);

7.1.8. bioloji aktivlər üzrə kapitallaşdırılmış məsrəflərə;

7.1.9. investisiya məqsədli torpaq sinfinə aid olan əsas fondlara;

7.1.10. investisiya məqsədli tikili üzrə kapitallaşdırılmış məsrəflərə;

7.1.11. sair uzunmüddətli qeyri-maliyyə aktivlərinə;

7.1.12. faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlərə;

7.1.13. qeyri-maddi aktivlər üzrə kapitallaşdırılmış məsrəflərə;

7.1.14. tam amortizasiya olunmuş yararsız hala düşmüş əsas fondlara;

7.1.15. tam amortizasiya olunmamış, lakin yararsız hala düşmüş əsas fondlara;

7.1.16. tam amortizasiya olunmuş, lakin istismara yararlı hesab olunan və əsaslı təmirə ehtiyacı olmayan əsas fondlara;

7.1.17. tam amortizasiya olunmuş qeyri-maddi aktivlərə;

7.1.18. satış məqsədi ilə saxlanılan digər aktivlər hesabına keçirilmiş əsas fondlara və qeyri-maddi aktivlərə;

7.1.19. istismarı müvəqqəti olaraq dayandırılmış əsas fondlara və qeyri-maddi aktivlərə;

7.1.20. istismarda olmayan (anbarda saxlanılan) əsas fondlara;

7.1.21. kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin istifadəsində olan silah-sursat və xüsusi məmulatlara.